**14 Mart 2008-ci il**

Xarici İşlər Nazirliyi bir sıra üzv dövlətlərin etiraz cəhdlərinə baxmayaraq BMT Baş Assambleyasının qətnaməni qəbul etməsinin vacibliyini vurğulayır.

Qətnamə beynəlxalq birliyin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə qəti tərəfdar çıxdığını nümayiş etdirir.

Beynəlxalq hüququn norma və prinsiplərinə tarazlıqla əsaslanan Qətnamə vaxtında qəbul edilmişdir və konstruktivdir.

O, Dağlıq Qarabağ regionu əhalisinin, hissəsi olduğu dövlətin ərazi bütövlüyü çərçivəsində özünüidarə etməsi üçün imkan yaradır.

O, məcburi köçkün düşmüş əhalinin öz doğma torpaqlarına qayıtmaq hüququnu bir daha təsdiq edir.

O, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasını tələb edir.

O, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan vasitəçilik səylərini dəstəkləyir.

Qətnamə Ermənistan və onun havadarlarına münaqişənin yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyini aydın göstərir.

Erməni tərəfi bunu dərk etməyənədək münaqişə həll edilə bilməz.

Erməni tərəfi və onun havadarları danışıqların yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında davam etdirilə biləcəyini dərk etməlidirlər.

Qətnamədə Dağlıq Qarabağın statusunun beynəlxalq hüquqda nəzərdə tutulmuş, mənsub olduğu dövlətin ərazi bütövlüyü çərçivəsində özünüidarə etmək səviyyəsində müəyyən edilməsi perspektivi nəzərdə tutulur və birmənalı şəkildə azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına geri qayıtmalarının vacibliyi qeyd edilir.

Ermənistan mövcud fakta əsaslanaraq öz mövqeyini diktə etməyə və azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti yeritməklə Dağlıq Qarabağı Azərbaycandan ayırmağa cəhd etməyə davam etdikcə, onun Azərbaycanla sülhə nail olması qeyri-mümkündür.

Mövcud fakt davam etdikcə Dağlıq Qarabağın statusu danışıqların mövzusu ola bilməz.

Status yalnız Azərbaycanın tərkibində olmaqla, regionun bütün əhalisinin iştirakı ilə hüquqi və demokratik proseslər vasitəsilə müəyyən edilə bilər. Mövcud prosses bütün ərazilərin işğaldan azad edilməsi, onların bərpası və məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması üçün real şəraitin yaradılmasını tələb edir.

Qətnamənin mətninin həmsədr ölkələrin dəfələrlə bizə təklif etdikləri münaqişənin həlli konsepsiyaları əsasında hazırlanmasına baxmayaraq, həmin ölkələrin onun əleyhinə səs verməsinə təəccüb və narazılıq hissi keçirdik.

Bəyan etməliyik ki, bu layihə aydınlıqdan daha çox özündə təzad və həllini tapmamış məsələləri cəmləşdirir və bu məsələlər vacib əhəmiyyət kəsb edir.

Biz həmsədr ölkələrin Azərbaycanın ərazi bütövlüyünə dəstəyini nəzərə almışıq və inanırıq ki, onlar bəyanatlarına tərəfdar çıxacaqlar.

Biz ümid edirik ki, əsas prinsiplər layihəsi üzərində işləyərkən, həmsədrlər beynəlxalq hüquqla diktə olunan beynəlxalq birliyin qəbul edilmiş qətnamədə öz əksini tapmış mövqeyini nəzərə alıb ona əsaslanacaqlar.

Qeyd etmək istəyirik ki, əsas prinsiplərin layihəsi üzərində işləyərkən Azərbaycan bundan sonra da qəbul edilmiş qətnamənin əsasını təşkil edən prinsipləri əsas götürəcək.

Bizim qətnaməmizi dəstəkləməklə Azərbaycana prinsipal və dost dəstəyi göstərmiş dövlətlərə öz minnətdarlığımızı və bunu unutmayacağımızı ifadə edirik.

Yalnız Azərbaycan üçün deyil, həm də beynəlxalq birlik üçün əhəmiyyət kəsb edən qətnaməni dəstəkləmək iqtidarında olmayan ölkələri də unutmayacağımızı bildirir, bununla yanaşı səsvermə zamanı bitərəf qalmış ölkələrin bu kimi qərarına onlara göstərilmiş təzyiq və yerləşdiyi mövqelərin səbəb olduğunu başa düşürük.

Biz Azərbaycanın ərazi bütövlüyünün əleyhinə səs vermiş dövlətlərin mövqeyini qəti surətdə rədd edir, onları əhəmiyyətsiz hesab edirik.

Bugünkü səsvermənin nəticələri hərtərəfli təhlil ediləcək və gələn il qətnaməmizin dəskəklənməsi üçün aparılacaq hazırlıq kompaniyası zamanı nəzərə alınacaqdır.

Azərbaycan Respublikasının Səfirliyi
Cakarta şəhəri

Jl. Mas Putih Blok D 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel: 5491939
Faks: 5491745
E-mail: azerbembjkt@u.net.id

Press-reliz

BMT Baş Assambleyası 14 mart 2008-ci ildə "Azərbaycanın işğal edilmiş ərazilərindəki vəziyyət" adlı qətnamə qəbul etmişdir. Qətnamədə Azərbaycanın ərazi bütövlüyü yenidən təsdiqlənmiş, beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinə Baş Assambleyanın dəstək verdiyi ifadə edilmiş və Ermənistan silahlı qüvvələrinin təxirəsalınmadan, tam və qeyd-şərtsiz işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması tələb edilmişdir.

Assambleya həmçinin azərbaycanlı əhalinin öz doğma yurdlarına qayıtmaq hüququnu yenidən təsdiq etmiş və dövlətləri Azərbaycan ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyəti tanımamağa, bu vəziyyətin saxlanmasına yardım göstərməməyə, Dağlıq Qarabağ regionunun erməni və azərbaycanlı icmaları üçün normal, təhlükəsiz və bərabərhüquqlu həyat şəraitinin yaradılmasına çağırmışdır.

Qətnamə Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq vasitəçilik səylərini, xüsusi olaraq Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Qrupu həmsədrlərinin fəaliyyətini dəstəkləyir.

Əfqanıstan, Azərbaycan, Bəhreyn, Banqladeş, Bruney, Kamboca, Kolumbiya, Qəmər adaları, Cibuti, Qambiya, Gürcüstan, İndoneziya, İraq, İordaniya, Küveyt, Liviya, Malayziya, Maldiv, Moldova, Mərakeş, Myanma, Niger, Nigeriya, Oman, Pakistan, Qətər, Səudiyyə Ərəbistanı, Seneqal,

Serbiya, Sierra-Leone, Somali, Sudan, Türkiyə, Tuvalu, Uqanda, Ukrayna, Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan və Yəmən qətnamənin lehinə səs vermişlər.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin press-relizi əlavə edilir.

19 mart 2008-ci il